

# Aprel döyüşləri – tarixi zəfərin başlanğıcı

***Prezident İlham Əliyevin silahlı qüvvələrimizin döyüş qabiliyyətinin artırılması istiqamətində həyata keçirdiyi islahatlar, ordu quruculuğunun səmərəli nəticələri 2016-cı ilin aprelində praktik şəkildə öz təsdiqini tapdı. Azərbaycan Ordusu həmin ayın 2-dən qəsbkar ölkənin təxribatlarına cavab olaraq, əlverişsiz mövqelərdən əks-hücum əməliyyatı ilə strateji mövqeləri, Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2 min hektardan çox hissəsini azad etdi. Həmçinin minlərlə hektar ərazi ordumuzun tam nəzarətinə keçdi. Beləliklə, tarixə Aprel döyüşləri kimi yazılan dördgünlük savaşda ordumuz təmas xəttində strateji üstünlüyünü təmin etməklə, xalqımıza qələbə sevinci yaşatdı.***

Ermənistan silahlı qüvvələri bu döyüşlərdə böyük itkilər verdi. Düşmənin 320-dən artıq hərbçisi məhv edildi, 500-dən artıq hərbi qulluqçusu yaralandı, 30-dək tankı və digər zirehli texnikası, 25-dən artıq artilleriya qurğusu sıradan çıxarıldı, Madagiz yaşayış məntəqəsində yerləşən qərargahı və əsas hərbi hissələri dağıldı. Ağdərə–Madagiz, Cəbrayıl istiqamətindəki yolların nəzarətdə saxlanılmasına imkan verən strateji mövqelər ələ keçirildi. Bütün bu əməliyyatlar ordumuzun peşəkarlıq səviyyəsinin yüksək olduğunu, Azərbaycan əsgər və zabitlərinin yüksək mənəvi-psixoloji hazırlığını, qələbə əzmini nümayiş etdirdi.

Azərbaycan Ordusunun daha bir uğuru Aprel döyüşlərindən iki il sonra – 2018-ci ilin mayında Günnüt zəfəri ilə qazanıldı. Bu uğurlu əməliyyat nəticəsində Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisi və Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilərək dövlət sərhədi boyunca əlverişli mövqelər Azərbaycan Ordusunun nəzarəti altına keçdi. Beləliklə, Əlahiddə Ümumqoşun Ordunun müdafiə zolağının ön xəttinin dövlət sərhədi boyu əlverişli mövqelərə irəli çəkilməsi əməliyyatı uğurla nəticələndi, qarşıya qoyulan məqsədə nail olundu.

Ali Baş Komandan İlham Əliyevin daimi nəzarəti, diqqət və qayğısı nəticəsində ordumuzun parlaq qələbə əldə etdiyi bu əməliyyatın ən böyük nəticələrindən biri o oldu ki, silahlı qüvvələrimiz mənəvi-psixoloji, döyüş ruhu, sosial, ictimai, texniki-təchizat, silah-sursat, peşəkarlıq baxımından Ermənistan ordusunu müqayisəolunmaz dərəcədə qabaqladığını ortaya qoydu və düşmən də bu üstünlüyü tam anladı. Erməni ictimaiyyəti bu prosesdə geriləndiyini, uduzduğunu açıq-aydın hiss etdi. Atəşkəs elan olunduqdan ötən dövr ərzində Ermənistan ilk dəfə törətdiyi təxribata görə layiqli cavabını aldı.

Yuxarıda xatırlatdığımız kimi, Aprel döyüşlərində silahlı qüvvələrimizin uğurlu əməliyyatları təsadüfi deyildi. Çünki dövlətimizin başçısı prezidentlik fəaliyyətinə başladığı ilk gündən diqqət yetirdiyi prioritet istiqamətlərdən biri də hərbi quruculuq məsələsi idi. Yeri gəlmişkən, Prezident İlham Əliyev hələ 2003-cü ildə andiçmə mərasimindəki nitqində bildirmişdi: “Azərbaycanda ordu quruculuğu sahəsində də böyük işlər görülmüşdür. Ölkəmizdə güclü ordu yaradılmışdır və bu proses davam edəcəkdir. Bu məsələ daim mənim diqqət mərkəzimdə olacaqdır. Azərbaycanın çox güclü ordusu olmalıdır. O, qarşıda duran bütün məsələləri həll etmək iqtidarında olmalıdır. Əminəm ki, Azərbaycanın iqtisadi potensialı ordumuzun ən yüksək standartlara cavab verməsinə və qarşıda duran bütün vəzifələri yerinə yetirməsinə imkan verəcəkdir”.

Ölkə rəhbəri ötən illər ərzində bu vədinə sadiq qaldı, respublikamızda ordunun gücləndirilməsi ilə bağlı olduqca mühüm işlər gördü, silahlı qüvvələrimizdə keyfiyyət və kəmiyyət dəyişikliklərinin yaranmasına nail oldu.

Beləliklə, ümummilli lider Heydər Əliyevin təməlini qoyduğu ordumuz dahi şəxsiyyətin müdrik varisi Prezident İlham Əliyev tərəfindən modernləşən silahlı qüvvələrə çevrildi. Dövlətimizin başçısı münaqişənin davam etdiyi illərdə uzaqgörənlik və təmkinlə diplomatik sahədə təxirəsalınmaz tədbirlər reallaşdırdı, iştirakçısı olduğu ən yüksək beynəlxalq mərasimlərin tribunalarından Qarabağ həqiqətlərini dünyaya bəyan etdi, aparıcı dövlətlərin rəhbərlərinin diqqətinə bu bölgənin ölkəmizin əzəli torpağı olduğunu və işğaldan azad edilməsinin labüdlüyünü çatdırdı. Nəhayət, respublikamızda möhkəm, sarsılmaz xalq-Prezident-ordu birliyi yaradıldı.

Aprel döyüşləri və Günnüt zəfəri ilə Ermənistana bir daha aydın oldu ki, Azərbaycan işğal altındakı torpaqlarını qısa müddət ərzində geri qaytarmağa qadirdir. Düşmən gördü ki, xalqımız ərazi bütövlüyünün bərpası üçün istənilən an müqəddəs savaşa hazırdır. Eyni zamanda, bu hadisə sübuta yetirdi ki, işğala tam son qoyulacağı gün uzaqda deyil. Bütün bunlar cəmi 4 il yarım sonra – 2020-ci il sentyabrın 27-dən başlanan və 44 gün çəkən zəfər yürüşündə inanılmaz uğurlarla öz təsdiqini tam şəkildə tapdı. Bu baxımdan Aprel döyüşləri və Günnüt zəfəri həm də torpaqlarımızın azadlığına gedən yolun başlanğıcı oldu. Bu savaşlarda Ermənistana layiqli dərs verən Azərbaycan Ordusu Vətən müharibəsində də düşməni döyüş meydanında tam məğlubiyyətə uğradaraq torpaqlarımızı işğaldan azad etdi.

Onu da deyək ki, Azərbaycan torpaqlarımızın işğaldan azad edilməsi üçün ilk gündən bu problemin həllində sülh danışıqlarına üstünlük verdi. Birinci Qarabağ müharibəsində torpaqlarının 20 faizini itirən Azərbaycan Respublikası əsasən, 1994-cü ildə imzalanan Bişkek protokolundan sonra Ermənistanla BMT Təhlükəsizlik Şurasının işğalçı qüvvələrin qeyd-şərtsiz Azərbaycan torpaqlarından çıxarılmasını nəzərdə tutan qərarlarının icrası üçün müxtəlif beynəlxalq qurumlar çərçivəsində uzunmüddətli diplomatik danışıqlar apardı. Lakin bu sülh təşəbbüsləri 2018-ci ildə Ermənistanda baş verən inqilab nəticəsində hakimiyyətə gələn Nikol Paşinyanın “Qarabağ Ermənistandır və nöqtə” kimi populist bəyanatları və Azərbaycanın işğal olunmuş ərazilərinə ardıcıl qanunsuz səfərləri kimi təxribatçı xarakter daşıyan hərəkətləri səbəbindən uğursuzluqla başa çatdı.

Təxribatçı əməllərin sayı isə sürətlə artırdı. Məsələn, 2019-cu ilin mart ayında Ermənistanın müdafiə naziri David Tonoyan ABŞ-da rəsmi səfərdə olarkən, “yeni torpaqlar üçün yeni müharibə” çağırışı etdi. Tonoyanın bəyanatı təmas xəttində bir sıra hərbi təxribatlarla müşayiət olundu. Ermənistan silahlı qüvvələrinin bölmələri 2020-ci ilin iyul ayında Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində əlverişli mövqeləri ələ keçirmək məqsədi ilə artilleriya atəşindən istifadə edərək hücuma keçməyə cəhd göstərsə də, buna müvəffəq ola bilmədi. Avqust ayında təmas xəttinin Goranboy rayonu istiqamətində Ermənistan ordusunun diversiya-kəşfiyyat qrupu yenidən təxribat törətməyə cəhd göstərdi, lakin görülən tədbirlər nəticəsində diversiya qrupu itki verərək geri çəkildi və qrupun komandiri baş leytenant Qurgen Alberyan əsir götürüldü.

Birbaşa hərbi təxribatlarla yanaşı, Ermənistan tərəfindən beynəlxalq hüquqi prinsiplərə zidd olaraq, Azərbaycan Respublikasının işğal altındakı ərazilərinə çox sayda YPG, PKK terrorçularının, o cümlədən, Beyrut limanındakı partlayışlardan sonra minlərlə Livan ermənilərinin köçürülməsi münaqişəni daha da alovlandırdı.

Yaranmış şəraitin gərginliyi 2020-ci ilin avqust ayının sonlarında Ermənistanın baş nazirinin həyat yoldaşı Anna Hakopyanın Azərbaycanın işğal altındakı ərazilərində qeyri-leqal olaraq təşkil olunmuş hərbi təlimdə iştirakını ictimailəşdirməsi ilə pik həddə çatdı.

Ermənistan tərəfinin bu qəbildən olan səmərəsiz və təhrikedici bəyanatları və hərəkətləri bir sıra tədqiqatçılar tərəfindən danışıqlar prosesindən tamamilə imtina olaraq qiymətləndirildi.

Azərbaycan Prezidenti İlham Əliyev 2020-ci il sentyabrın 25-də BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında videoformatda çıxışında Ermənistanın təxribatları nəticəsində azərbaycanlı hərbçilərin və 76 yaşlı mülki vətəndaşın həlak olması, habelə mülki infrastruktura vurulan ciddi ziyan barədə məlumat verdi. O cümlədən, Azərbaycan Prezidenti iyulun 17-dən etibarən sentyabr ayına qədər hərbi yük təyyarələri ilə Ermənistana min tondan artıq hərbi avadanlığın daşındığını bildirdi. Sözügedən tədbirdə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən çıxış etdi.

Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev sentyabrın 27-də saat 6 radələrində Ermənistan silahlı qüvvələrinin atəşkəs rejimini kobud şəkildə pozması ilə bağlı bəyanat yaydı. Həmin gün Azərbaycan Silahlı Qüvvələri erməni təxribatlarının qarşısını almaq üçün əks-həmlə əməliyyatlarına başladı və respublika ərazisində hərbi vəziyyət elan olundu.

Beləliklə, ordumuz 2020-ci il sentyabrın 27-dən başladığı əks-hücum əməliyyatları nəticəsində işğal altında olan ərazilərimizi düşməndən təmizlədi. Bununla da Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin yerinə yetirilməsinə nail oldu.

İşğal olunmuş ərazilərimizdə ermənilər tərəfindən möhkəmləndirilmiş hərbi mühəndis-istehkam qurğuları Azərbaycan Ordusunun əks-hücumu nəticəsində darmadağın edildi, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcər, Laçın, Ağdam və Hadrut azad edildi. Bütövlükdə, 5 şəhər, 4 qəsəbə və 300-ə yaxın kəndin ərazisi hərbi yolla düşmən qruplaşmalarından təmizləndi.

Azərbaycanın qədim mədəniyyət beşiyi sayılan və hər bir azərbaycanlının qəlbində qürur və iftixar simvolu olan Şuşa şəhəri düşmən əsarətindən qurtuldu. İşğal altındakı ərazilərimizdə qalmış çoxsaylı qədim tarixi abidələr, o cümlədən, Yer üzündə ilk insan məskənlərindən biri sayılan qədim Azıx mağarası erməni vandalizmindən xilas edildi. İranla dövlət sərhədlərimizin uzun müddət ərzində nəzarətdən çıxmış 130 kilometrdən çox hissəsi yenidən bərpa olundu və Sərhəd Qoşunlarımızın mühafizəsinə qaytarıldı.

Azərbaycan, Rusiya və Ermənistan rəhbərləri tərəfindən imzalanan birgə Bəyanatın qüvvəyə minməsi ilə münaqişənin hərbi fazası başa çatdı. Bəyanata uyğun olaraq, 2020-ci il dekabrın 1-dək isə üç rayon – Laçın, Ağdam və Kəlbəcər Azərbaycana təhvil verildi. Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşasının təmin edilməsi elan olunub.

Beləliklə, ermənilərin Cənubi Qafqaza köçürülməsindən və torpaqlarımızda kompakt yaşamağa başladığı vaxtdan keçən təxminən 200 illik bir dövrdə ərsəyə gətirdikləri və “dənizdən-dənizə böyük Ermənistan” kimi mifik təsəvvürlərə əsaslanan milli ideyası Azərbaycan reallıqları ilə toqquşmada darmadağın oldu.

İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusunun sıradan çıxartdığı və ya qənimət kimi götürdüyü Ermənistana məxsus hərbi texnikanın dəyərinin minimum qiymətləndirmə ssenarisi əsasında ən azı 3,8 milyard ABŞ dolları dəyərində olduğu, 10 mindən çox canlı qüvvəsinin məhv edildiyi bildirildi.

Vətən müharibəsi nəticəsində Ermənistan 10 ədəd S-300 zenit-raket kompleksi, habelə onun taktiki-döyüş vasitələri, 366 tank, 352 müxtəlif çaplı top, 22 ədəd PUA, 5 Su-25 təyyarəsi və 50 Tor, Osa, Kub, Kruq modelli zenit-raket komplekslərindən məhrum olundu. Eyni zamanda, düşmənin döyüş əməliyyatları çərçivəsində xüsusi əhəmiyyətə malik 97 ədəd Qrad, 4 ədəd Smerç, 2 Uraqan, 1 Tos odsaçan, 2 Uraqan, 1 ədəd Yars, Toçka-U, ballistik raketlər, Elbrus raket kompleksləri də məhv edildi. Xüsusi müdafiə qabiliyyəti üçün mühüm əhəmiyyət kəsb edən radiolokasiya stansiya və vasitələri, xüsusi döyüş qərargahları və silah-sursat anbarları da sıradan çıxarılmaqla Ermənistanın müharibə qabiliyyəti tamamilə məhv olundu.

Azərbaycan Ordusu guya münaqişənin hərbi həllinin olmaması haqqında beynəlxalq qurumlar tərəfindən ictimai fikirdə formalaşdırılmış mifi darmadağın edərək, savaş yolu ilə dogma yurd-yuvalarından didərgin düşən 1 milyon məcburi köçkünün Vətən həsrətinə son qoydu, 12 min kvadrat kilometr ərazini ölkənin iqtisadi fəaliyyət dövriyyəsinə qaytardı, yeraltı-yerüstü sərvətlərimizin talanmasını dayandırdı.

İkinci Qarabağ müharibəsi Azərbaycan Ordusunun dünyada hərbi əməliyyatların planlaşdırılmasının, həyata keçirilməsinin və yekunlaşdırılmasının yeni texnologiyalara əsaslanan ilk praktik nümunəsini bütün dünyaya göstərdi. Bu savaş xalqımızın mətin iradəyə malik olduğunu, milli ideya ətrafında sıx birləşmək gücünü və işğala boyun əyməmək əzmini təsdiqlədi. Dövlət-xalq-ordu birliyi zəfərin əldə olunmasının şərtləndirdi. Prezident İlham Əliyev diplomatik məharəti və yenilməz sərkərdəlik qabiliyyəti ilə qazanılan uğurlarla xalqa özünü daha da sevdirdi.

***Vaqif BAYRAMOV,***
***“Xalq qəzeti”***